

Xalq şairi Söhrab Tahir

### Tutmuşam

(bir parça)

Bir məslək var, kitabımda, xalq yolu,
Hər məsləkdən, əqidədən xalq ulu.
Ürəyimdə məhəbbəti dopdolu,
Xalqı sevdim xalqlar ilə dost olum.
Buna görə hər bir yolu atmışam,
Öz xalqımı, millətimi tutmuşam.

Mənim xalqım yad önündə çökməyib,
Bu millətdən heç kəs zərər çəkməyib.
Bir yuvanı dağıtmayıb, sökməyib
Buna görə hər bir yolu atmışam.
Öz xalqımı, millətimi tutmuşam.

Kaş ki, xalqlar bu xalq kimi olaydı,
Nəsihətlə boşalardı, dolardı.
Daim belə nəsihətdə qalaydı,
Dünya ondan dözüm dərsi alaydı.
Buna görə hər bir yolu atmışam.
Öz xalqımı, millətimi tutmuşam.



Əli Tudə

### Qardaş torpağında

Dostlar yaxşı gördü, o zaman ki, mən
Öz ana yurdumdan düşdüm aralı.
Elə bil qaraldı gözlərimdə çən,
Xəyalım dağınıq, sinəm yaralı.
Dedim ki, tablaşa bilmərəm daha
Təbriz, Urmiyəsiz, Xoysuz, Mərəndsiz
Dedim ki, çıxmaram doğan sabaha
Bir də Savalansız, bir də Səhəndsiz.
İndi dolaşıram bu torpağı mən
Öz şəhərim kimi öz kəndim kimi,
Sevirəm Göygölü, Kəpəz dağı mən,
Urmi gölü kimi, Səhəndim kimi.

## Məlumat

İranlı mühacirlər ailəsinə mənsub yaradıcılıqla məşğul olan (şeir, hekayə, nəsr yazan) cavanları ədəbi birliyimizə dəvət edirik.

***Birliyin məşğələsi hər ayın 17-si saat - 11-də cəmiyyətin binasında keçirilir.***

**İranlı Mühacirlər Cəmiyyəti Ədəbi Birliyinin sədri Tariyel Ümid**

# Görkəmli fədai, alim, pedaqoqun... "Mühacir"ə töhfəsi

"Mühacir" cəmiyyətimizə lazımdır, onu dirçəldin, yaşadın-dedi. - Mənim təbriklərimi çatdırın. Uğurlar dilədi, "Xəyal, arzu, ümid səhrasında" kitabını bağışladı. İndi biz də oxuculara Əsəd Rza Yəqubinin söz boğçasından iki ərməğan təqdim edirik.

### *"Qürbət gecələrində"*

... Təbiət nə qədər nəvazişli idi. O, sanki diləklərlə çırpınan yaralı bir ürəyi oxşayırdı. Diqqətimi toplayıb orğun-orğun Xəzərin o taydakı sahilinə yönəltdim.... Qəlbimin dərinliklərində coşan fəraq dəryasının nəhəng həsrət dalğaları gözlərimdən damla-damla axır, sanki Xəzərlə qovuşmağa tələsirdi mən bu füsunkar qəmli anlarda, hələ də sarsılmamış yaralı köksüm bütün sərhəd gözətçilərinin sərrast atəş açmalarını dilədim. Ancaq paslı-polad tikanlar üzəndə dikəlmiş bu eybəcər dünyanın ölüm saçan gözləri bütöv bir ömrün başlədiyi həsrət dərdlərinə közərmiş mərmi qədər də qiymət vermədi!

Mən yenə də ətrafdakılardan gizlətdiyim göz yaşları ilə doğma yurdun lap qarşısından geri döndüm.

**10 dekabr 1967-ci il**

### *Tənhalıq*



"Ruzigar bədəni sarsıdır, arzuları təzələyir; ölümü yaxınlaşdırır, ümidi uzaqlaşdırır".

Sirri açılmayan ruzigar əlindən Allaha pənah aparıram. Bəşəriyyətin sonsuz itkilərinə nə deyəsən?!

Bəs itirdiyim həmvətənlərimi və dostlarımı harda axtarım mən?

Məhəbbət vurğunlarına qənim kəsilmiş bu tənhalıq barədə nə deyim? Nə deyəsən varlığın bu yoxluğu barədə?!

Bax! Budur məni sarsıdan, qəlbimi dağlayan.

Yaşlı olmağın da özünəməxsus ruhpərvər səfası var. Mahiyyətini və meyarını vəsf edə bilmədiyin gözəlliyi məhz bu çağlarda görür və dərk edirsən. Ancaq varlığa verilmiş bu ilahi bəxşiş tənhalığın dərd qatları altında necə də sənin üçün görünməz olur! Varlıq yoxluğa çevrilir.

Deyirəm, nə yaxşı ki, tale bir xoşbəxt fürsəti mənə çox görməmişdir. Ömrün son çağlarında həyatda olan nisgilli mühacir dostlarımı və həmvətənlərimi salamlaya bilirəm. Varlığımı hələ duyuram.

**25 may 2007-ci il**

*Aktual*

# Türkiyə, Azərbaycan və İran təhlükədə

***Ermənistanda yerləşən "Metsamor" Atom Elektrik Stansiyasının (AES) region üçün ciddi təhlükə mənbəyi olduğu, hər an partlamağa hazır bomba funksiyasını yerinə yetirdiyi barədə dəfələrlə müvafiq beynəlxalq qurumlar qarşısında məsələ qaldırılsa da, nədənsə bəlli dairələr bilərəkdən ekoloji fəlakətin yaxınlaşmasına şərait yaradırlar. Azərbaycan və Türkiyənin vətəndaş cəmiyyəti nümayəndələrinin stansiyanın bağlanması ilə bağlı təşəbbüsləri də bir qayda olaraq ciddiyə alınmır. Belə bir vəziyyət isə mövcud təhlükəni daha da artırır.***

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının mətbuat xidmətinin rəhbəri, İqdır-Azərbaycan Evi Dərnəyinin sədri Sərdar Ünsal deyir ki, hazırda "Metsamor" AES Türkiyə, Azərbaycan və İranı ciddi təhdid edir: "Iqdırın mərkəzindən 15 kilometr, sərhəd kəndlərdən isə 100-200 metr məsafədə yerləşən Metsomor Atom Elektrik Stansiyası partlamağa hazır olan saatlı bir bombadır. Xırda bir yeraltı təkan, zəlzələ ilə bölgə yox ola bilər". Dərnək rəhbəri bir daha diqqəti stansiyanın ətraf mühitə, insanlara vurduğu ziyana çəkərək qeyd edib ki, "Metsamor" səbəbindən hər il İqdırda, ümumilikdə isə Türkiyədə xərçəng xəstəliyinə tutulan, bu üzdən həyatını itirən insanların sayı artır: "Metsamor Atom Elektrik Stansiyası səbəbindən hər il Iqdırda, 300, digər yaxın vilayətlərdə isə 150-dən artıq şəxsə xərçəng diaqnozu qoyulur. 200 min əhalisi olan Iqdırda, xərçəng xəstəliyindən həyatını itirənlərin sayı hər ii artır. Son illərin statistikasına görə, hər il Iqdırda xərçəngdən həyatını itirənlərin sayı 300 nəfərdir. Bundan başqa hazırda İqdırdan kənarda, hətta xarici ölkələrdə xərçəngdən müalicə olunan vətəndaşlarımız da var". Sərdar Ünsal deyir ki, əgər 1990-cı illərdə Iqdırda xərçəng diaqnozu qoyulan şəxslərin sayı cəmi15-20 nəfər təşkil edirdisə, 2000-ci illərdə bu rəqəm 30-40 arasında dəyişib: "2010-2011-2012-ci illərdə isə hər il 300-ə yaxın ıqdırlının xərçəngə tutulduğu məlum olub. Ötən il isə bu göstərici hətta bir qədər də çox olub". Sərdar Ünsal iddia edir ki, İqdırda xərçəng xəstələrinin sayının artması məhz "Metsamor" Atom Elektrik Stansiyasında baş verən və gizlədilən radiasiya sızıntısı ilə bağlıdır: "Bu günlərdə vilayət rəsmilərinin açıqladığı məlumatda qeyd olunur ki, guya "Metsamor" AES-də heç bir radiasiya sızıntısı yoxdur. Bunu biz də arzu edirik ki, stansiyada radiasiya sızıntısı olmasın. Ancaq ortada olan görüntü bunun tamamilə əksini söyləyir. Bu zaman ortaya maraqlı bir sual çıxır. Əgər "Metsamor" Atom Elektrik Stansiyasında rəsmilərinin deidyi kimi radiasiya sızıntısı yoxdursa, o halda hər il İqdırda xərçəng xəstələrinin sayının artmasının başlıca səbəbi nədir? Ona görə də hesab edirəm ki, xalqdan nəyisə gizlətməyin heç bir mənası yoxdur. Rəsmi statistika, xəstəxanalarda xərçəng xəstələri barədə aparılan qeydlər xalqa açıqlanmalıdır. Həmçinin Ərzurum, Qars, Ankara və İstanbulda bu xəstəlikdən müalicə olunan iqdırlılar barədə də cəmiyyətə məlumat verilməlidir". Sərdar Ünsal "Metsamor" AES-in Araz çayı üçün də ciddi təhlükə mənbəyi olduğunu deyib. O, bildirib ki, Ermənistanın elektrik ehtiyacının 40 faizini təmin edən stansiyanın boruları Araz çayı ilə soyudulur.



Qeyd edək ki, 1970-ci illərdə Sovetlər Birliyi dövründə primitiv texnologiyayla inşa edilən "Metsamor" Atom Elektrik Stansiyası, Iqdıra 16, Qarsın mərkəzinə 60 və Ermənistanın paytaxtı İrəvana 40 kilometr məsafədə yerləşir. Qaynağını Araz çayından alan yüngül suyla işləyən köhnə model stansiya olan "Metsamor" 1988-ci ildə Ermənistanın şimal qərbindəki Spitak rayonunda meydana gələn şiddətli zəlzələdən sonra təhlükəsizlik tədbirləri baxımından 7 illiyiə bağlanılmışdı. Ancaq 1995-ci ildən stansiya yenidən fəaliyyətə başlayıb. Amerika və Avropa Birliyi, "Metsamor"un fəaliyyətinin dayandırılıb daha etibarlı hala gətirilməsi üçün Ermənistana milyonlarla dollar yardım ayırsa da, işğalçı ölkə həmin pulları başqa ehtiyacları üçün xərcləyib. Hazırda da stansiya fəaliyyət göstərməklə region üçün ciddi təhlükə mənbəyi yaradır.

***Füzuli***

## İtmişdir

Türkiyə vətəndaşı Sezgin Özmenin adına verilmiş müvəqqəti şəxsiyyət vəsiqəsi itdiyi üşün etibarsız sayılır.

**BAŞ REDAKTOR:**
Rəhim Hüseynzadə

**Redaktorlar:**
Həsən Ahəngi
Həsən Babai

**Qəzet 18 yanvar 1994-cü ildə dövlət qeydiyyatına alınıb.**

**Hesab nömrəmiz**
**Bankın adı: "Kapital bank" ın 1 saylı Yasamal filalı**
**Hesab nömrəsi**
**AZ80AIIB33080019443302338103**
**VÖEN: 1301812021**

**Ünvanımız: Bakı 9, Əli bəy Hüseynzadə 66, Tel- 594-53-94**
***e-mail:irmuhacir@mail.ru***

**Qəzet "İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin kompüter mərkəzində yığılıb. "Son Dakika" mətbəəsində çap olunub.**
**Tiraj: 250**